# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 461** **Bakı şəhəri, 30 dekabr 2022-ci il**

***"Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 58; 2009, № 1, maddə 34; 2014, № 10, maddə 1297; 2015, № 2, maddə 219; 2016, № 11, maddə 1949; 2017, № 9, maddə 1748; 2018, № 10, maddə 2162; 2019, № 12, maddə 2091) ilə təsdiq edilmiş "Pestisid ehtiyatının yaradılması və istifadəsi Qaydaları, pestisidlərin növlər üzrə ehtiyat Normaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissəyə "dairəsində" sözündən sonra "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi (bundan sonra – Agentlik) və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti (bundan sonra – Xidmət) tərəfindən" sözləri əlavə edilsin.

**2.** 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. Pestisid ehtiyatı dövlətin əmlakı hesab edilir və xüsusi anbarlarda "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 22 yanvar tarixli 10 nömrəli Qərarı ilə müəyyən edilmiş tələblərə uyğun olaraq saxlanılır.".

**3.** 5-ci hissə aşağıdakı redaksiyada verilsin:

"5. Pestisid növlərinin ehtiyatı Agentliyin və Xidmətin təklifi əsasında Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən müəyyən edilir.".

**4.** 7-ci hissədə "tərəfindən tərtib edilmiş xüsusi kitabda aparılır" sözləri "və Xidmət tərəfindən aparılır və bu barədə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə hər il ümumiləş-dirilmiş məlumat təqdim edilir" sözləri ilə əvəz edilsin.

**5.** 8-ci hissə aşağıdakı redaksiyada verilsin:

"8. Pestisid ehtiyatları qanunvericiliklə müəyyən olunmuş qaydada Agentlik və Xidmət tərəfindən müvafiq fitosanitar tədbirlərdə istifadə olunur. Bu pestisidlərin istifadəsi barədə Agentlik və Xidmət tərəfindən müvafiq akt tərtib edilir. Aktın birinci nüsxəsi Agentlikdə, ikinci nüsxəsi Xidmətdə saxlanılır, üçüncü nüsxəsi isə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə göndərilir.".

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

Xalq qəzeti .- 2023.- 6 yanvar S.6.